*Yazıçı-jurnalist Canalı Mirzəliyev Ağsu rayonundakı Pirhəsənli kən-dində anadan olmuşdur. O, Azərbaycan Dövlət Universitetini (BDU) və Bakı Ali Partiya məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. Uzun il-lərdir ki, baş redaktor kimi səmərəli fəaliyyət göstərir. Hazırda o, Azər-baycan Respublikası Mədəniyyət Nazirliyinin orqanı "Yaddaş" qəzetinin baş redaktorudur.*

*Canalı Mirzəliyev "Qızıl Qələm", Həsən bəy Zərdabi və "Humay" mükafatı laureatı, həmçinin Birləşmiş Millətlər Təşkilatı nümayəndəli-yinin, Azərbaycan Dövlət Proqramı katibliyinin, OXFAM Humanitar Təşkilatının, Beynəlxalq Mətbuat Mərkəzinin müsabiqə qalibi, müka-fatçısı və diplomçusudur.*

*Yazıçı Canalı Mirzəliyev müxtəlif adda 28 ədəbi-bədii və publisistik kibatın müəllifidir.*




**Canalı Mirzəliyev**

# BAL+ZƏHƏR=HƏYAT

O biçarə qızın başına nələr gəlmədi?

O qız gah xəzinə oldu, gah viranə. O, Nuhun gəmisinə də mindi, Süleymanın taxtına da çıxdı, Asafla cinlərin, Hamanla Asiyənin yollarında durdu. O, Züleyxa ilə Yusifin eşq macərasını da gördü, gah Yusif, gah da Züleyxa oldu. Gah yanan, gah yaxılan, gah asılan, gah kəsilən, gah sevilən, gah döyülən, ... gah da dilənən... oldu.

O qız gah dolu bir qədəh, gah da qədəhləri ilə gecəni diri gözlə açan bir sərxoş oldu. Gah avam, gah çoxbilmiş, gah quzğun, gah da şahin oldu. Gah şən oldu, gah da qəmgin. Gah zarafatı sevdi, gah da zarafata nifrət etdi.

O qız intəhasız dənizdə gah qabaran, gah çəkilən bir dalğa oldu, illəri adlayıb bu günə gəldi. Bu gündən də sabaha getməlidir. Yolun harasındadır? Hələ bilmir...

Onun sınıq könlü karvansaradır, ya da müsafirxana — dərd, dərman və xəyal da onun qonaqları.

...Məhəbbət narahat halda qədim bir əxlaq kitabını o tərəf-bu tərəfə vərəqləyir, hikmətli fikirləri diqqətlə oxuyurdu: " İnsanda qüvveyi - aqilə... bir ayna kimidir. Bu ayna təbii halında qaldıqca, ruh onunla hər şeyi olduğu kimi görür və insan əxlaqın ən uca zirvələrinə ucala bilir. Fəqət qüvveyi-qəzəbiyyə ilə qüvveyi-təhəviyyə tüğyan edərək, qara bir duman kimi yüksəlib bu aynanı qapadarsa, ağlı öz əmrinə tabe edərsə, insan heyvanlıq dərəcəsinə düşər. Onun nəzərində haqq və vəzifənin heç bir qiyməti qalmaz, şəxsi mənfəətindən başqa heç bir şeyi düşünməz. Belə insanların qəlbi şeytan yuvasına çevrilir, onların mənəviyyatında əxlaqsızlıq, pislik, qəbahət və rəzalət kök salır".

Məhəbbət kitabı örtüb pəncərəyə yaxınlaşdı. Mavi səmaya baxıb öz-özünə düşündü:

"Gözəl deyimdir. Bu fikrin arxasında böyük hikmətlər dayanır".

* * *

...Məhəbbət bir yerdə qərar tuta bilmir, kitabxanasındakı kitabları təkrar-təkrar nəzərdən keçirirdi. Böyük rus yazıçısı Qleb Uspenskinin "Viypramila" oçerkini vərəqlədi. Oçerkin məzmunu onu yaman tutmuşdu. Kitabda qədim yunan məhəbbət ilahəsi heykəli Milos Venerasının Tyapuşkini necə xilas etməsindən danışılır.

Kənd müəllimi Tyapuşkinin həyatı fərəhsiz keçirdi. Ehtiyac, ümidsiz zülmət və həyatı dəyişmək qarşısında acizliyi, kəskin, ardı - arası kəsilməyən ağrı onun qəlbini parçalayırdı. Nəhayət, Tyapuşkin özünü öldürmək fikrinə düşür... Sonra o, lap çoxdan Paris muzeyində gördüyü Milos Venerasının məşhur heykəlini yadına salır. Bu heykəl onu sevinc, fərəh hissi keçirməyə məcbur edir.

Tyapuşkin Veneraya sadəcə olaraq gözəl qadın kimi deyil, ideal insan obrazı kimi baxırdı. Bu obraz sanki ona həyat qidası vermişdi. İndi həmin obraz, həmin fərəhli anlar onu sanki yuxudan oyatmışdı. Bu fərəhli anlardan sonra o, insan olmaq kimi bir duyğunun ağuşuna atıldı. Gözəlliyin gücü ona o dərəcədə təsir etmişdi ki, kənd müəllimi özünü mənəvi cəhətdən yenidən doğulmuş kimi hiss edirdi. "Yenidən doğulan" Tyapuşkin deyir: "...Mən bu gündən etibarən, necə deyərlər, ən təmənnasız davranışın nəinki tələbat, birbaşa zərurət, labüdlik oduğunu hiss etdim: insanı incitməmək xatirinə də olsa, lazım olanı deməmək, pis bir şeyi öz daxilində gizlədib susmaq, heç bir mənası olmayan boş bir söz demək, yalnız öz qəlbimi sıxan və yaxud əksinə, azacıq da olsa özgəsinin qəlbini sıxan bir iş görmək indi, bu xatirəli gündən etibarən ağlasığmaz, ağlagəlməz bir şey olmuşdu; bu, özünü insan hiss etməmək, bir səadəti itirmək deməkdir; bu səadət mənə tanış idi və mən bunu bir tük qədər də azaltmağı arzu etməzdim".

Milos Venerasının gözəlliyi həmişə onunla olsun deyə, Tyapuşkin heykəlin fotoşəklini öz evində divardan asır, ağrı onu əzdiyi və taqətdən saldığı anlarda həmin şəklə baxır, hər gün igidlik göstərmək üçün yenidən güc toplayır.

Həyatda gözəl obraz insanı həyatın mənasını düşünməyə vadar edir, onda yeni fəaliyyət və mübarizə ruhu yaradır.

Dünya klassiklərinin ölməz sənət əsərləri insanların "düşüncələrinin hakimi" kəsilmiş, əsl insan kimi yaşamaq

və mübarizə aparmaqda onlara kömək etmişdir.

Ətraf aləmin, ədəbiyyatın, incəsənətin, gözəlliyin qüvvəsi belə böyükdür.

* * *

İnsan insanla qarşılaşanda ona uyğun gəlməyə və əməkdaşlığa çalışır, başqalarının naminə özünü könüllü surətdə məhdudlaşdırır. Buna görə də insanlar arasında münasibətdə əsl insanlıq borcu üçün həmişə yer vardır. Borcun yerinə yetirilməsindən yaranan mənəvi hiss dünyaya nikbin münasibət bəsləməyin əsasına çevrilir.

Həyatımız ancaq bayramlardan ibarət deyildir. Həyatda çox haqsızlıqlar, cinayətlər və digər qəbahətlər də mövcuddur. İnsan cəmiyyəti xeyirlə şərin daimi mübarizəsidir. Yaxşılıq, xeyir bəzən nağıllarda deyildiyi kimi olmur, şərə qalib gələ bilmir. Pis əməllər, şər işlər dedikdə, təkcə müharibəni və faşizmi düşünmürük, ona görə ki, pis əməllərin çox üzü vardır. Bəzən bu pis əməllər insanların qəlbinə yol tapa bilir, bu isə xoşbəxtliyi bədbəxtliyə çevirir. Bəzi insanlar şərin qurduğu tələyə düşürlər.

Bir sıra Yaxın və Orta Şərq xalqlarının ən qədim yazılı abidəsi sayılan və yazılma tarixi eramızdan əvvəl VI əsrə aid edilən "Avesta" da xeyirin şər, işığın qaranlıq üzərində qələbəsini təmin etmək üçün Zərdüştün adından bir neçə fəzilət və qəbahət irəli sürülmüşdür. "Avesta" da bütün fəzilətlər öz başlanğıcını "xeyir fikir", "xeyir söz", "xeyir əməl" adlanan xeyir triadasından (üçlüyündən) götürür.

İnsan öz hərəkətlərinə cavabdehdir, odur ki, o, həmişə xeyir işlərə çalışmalıdır. Hər bir insanın, xüsusilə gənclərin, bu gün yol verdiyi səhvlər onların sabahkı bədbəxtliyidir. Gərək hər kəs pis əməllərdən uzaq olsun, həmişə yaxşılığa can atsın. Qoy bütün insanların həyatında nağıllarda deyildiyi kimi, xeyir şərə qalib gəlsin.

Ancaq həyat xeyirlə-şərin üz-üzə gəlməsi, qarışığıdır. Həyatda sevinc doğuran hadisələrlə yanaşı, arzu olunmaz hadisələr də baş verir.

## I.

Valideynləri Məhəbbətin gələcək peşəsi haqqında tez-tez söhbət açırdılar. Hər dəfə peşə seçmək barədə söz düşəndə o, qəti bir fikir söyləyirdi. Deyirdi ki, mütləq həkim olacaq, insanların sağlamlığı keşiyində duracaqdır.

Hələ ali məktəbə daxil olmamış Məhəbbət Nisə adlı bir qıza vurulmuşdu. Valideynləri onun eşqinə əngəl törətmədilər, - könül sevən göyçək olar, - deyib, razılıqlarını bildirmişdilər.

Axı, Məhəbbət demişdi həkim olacaq. Ancaq gələcək həyat yoldaşı onun bu fikrinə qəti etiraz etdi. Dedi ki, əgər Məhəbbət həkimlik sənətinin dalınca getsə onların ailə qurması baş tutmayacaq. Bu şərt çox ağır şərt idi.

Görünür, bu da səbəbsiz deyildi. Nisə xanımın sevimli anası naşı bir həkimin səhv diaqnozu nəticəsində dünyasını vaxtsız dəyişmişdi. Elə o gündən də Nisə xanımın ürəyində həkimlərə qarşı bir nifrət, bir qəzəb hissi dolaşırdı. O, bu barədə - anasının ölüm səbəbi barədə Məhəbbətə hələ heç nə deməmişdi.

Məhəbbət sevgilisinə çox yalvar-yapış elədi, belə yalvar-yapışı həyatında hələ heç kimə etməmişdi. Xahiş etdi ki, qız onun bu arzusuna mane olmasın. Ancaq xahişin heç bir faydası olmadı. Qız yola gəlmədi. Nə etmək olardı? Məhəbbət iki yol ayrıcında qalmışdı. Ya qəlbən sevdiyi bir qızdan imtina etməli idi, ya da illər uzunu arzusunda olduğu peşədən...

Bir neçə gün düşünüb-daşındı. İstədi ki, sevgilisindən imtina etsin, nə çoxdu qız, birini tapıb evlənər. Bu fikri beynində çox fırlatdı, ancaq bu qərara gəlməyə cəsarəti çatmadı. Bu qərarı verməyə ürəyi də razı olmadı.

Məhəbbət o qızı elə sevirdi ki, ondan ayrılmağı təsəvvürünə belə gətirə bilməzdi. Elə buna görə də həkimlik peşəsindən yan keçməli oldu. Sevgilisinin arzusu ilə rəssamlıq peşəsinin dalınca getdi. Lap uşaqlıqdan əl qabiliyyəti vardı, rəsmlər çəkirdi.

Məhəbbət çoxdan bəri dalınca süründüyü həmin qızla ailə həyatı qurdu. Uşaqları oldu. Sonra da Məhəbbət Rəssamlıq Akademiyasına daxil oldu, rəssam-heykəltəraş ixtisası qazandı.

Məhəbbət ilk illər ortabab bir rəssam-heykəltəraş kimi tanındı. Vaxt ötdükcə daha da püxtələşdi. Əsrarəngiz tablolar yaratdı, rənglərin cazibəsi onu sehrləndirdi, fərdi sərgiləri təşkil edildi. Məhəbbət hiss etdi ki, insan həyatı təbiət hadisələri ilə mütəmadi əlaqədədir. Həyatın qəribəlikləri sonsuzdur, intəhasızdır.

Məhəbbət belə düşünürdü ki, rəssamlıqda tablo yalnız kalorit cəhətdən həll edildikdə, rənglər həmahəng olduqda rəng təsir gücünə malik ola bilər. Rəng harmoniyası olmadıqda isə tablo alabəzək və ya solğun olur və rəng, kalorit tamaşaçıların hissinə heç bir təsir göstərə bilmir.

Rəssamlar kaloritin sirrini tapmağa çalışarkən belə bir nəticəyə gəlmişlər ki, kaloritin gözəlliyi parça üzərində rənglərin və onların çalarlarının yerləşdirilməsi ilə əldə edilir, belə yerləşdirmə eyni zamanda həm müxtəlif, həm də birləşmiş olur. Sanki rəssam tərəfindən harmoniya almaq üçün bir-birinə zidd olan rənglər tamda əridilir, birləşdirilir.

Məhəbbət həyat təcrübəsindən bildi ki, rənglərin harmoniyası elə bil ki, insanın harmoniyasıdır. Rənglərin harmoniyası bir tamda əridiyi, birləşdiyi kimi, əxlaqi, mənəvi keyfiyyətlər də insanın özündə birləşir.

Məhəbbət öz-özünə fikirləşdi: "Bəlkə, o vaxt sevgilim elə buna görə mənim rəssam olmağıma tərəfdar çıxdı? Bəlkə də..."

## II

Rəssamgilin qonşusu Mələk xanım cavan əri öləndən sonra müəllimlik peşəsini atıb alverlə məşğul olmağa başlamışdı. O gündən də özünə tərəf müqabili axtarırdı. Deyirdi ki, bir alverə qurşanan rəfiqəsi olsa gəliri artar, həm də onunla darıxmaz.

Rəssamın arvadı Nisə xanım qonşusu Mələk xanımla demək olar ki, hər gün görüşürdü. Onlar rəfiqə idilər, Pedaqoji İnstitutu birlikdə bitirmişdilər. İbtidai sinif müəllimi ixtisası almışdılar.

Mələk xanım tez-tez Dubaya, həmçinin dünyanın digər şəhərlərinə gedir, oradan pal-paltar, kompüter avadanlıqları gətirib satırdı. Bu yolla o, az vaxt ərzində xeyli mal-dövlət toplaya bilmişdi. Dubayda dost-tanışları daha çox idi.

Qonşusunun belə firavan həyatı Nisə xanımı qıcıqlandırırdı. O, da qonşusu Mələk xanım kimi dövlətli yaşamaq, maşın almaq, tez-tez səyahətlərə çıxmaq arzusunda idi. Düzünə qalsa, Nisə xanımda bu arzuların baş qaldırmasına rəfiqəsi Mələk xanım səbəb olmuşdu.



Mələk xanım hər dəfə qonşusunun görüşünə gələndə deyirdi:

- Ay qız, nə yapışmısan bu sinif müəllimliyindən. Bu peşədən nə qazanırsan ki, ömrünü belə çürüdürsən? Sən bir çölə - bayıra çıx, dünyaya bax. Hələ cavansan, gözəl görkəmin var, sağlam da canın. İndi sənin dörd divar arasında oturub müəllimlik eləyən vaxtın deyil.

Mələk xanımın söhbətləri Nisə xanıma getdikcə daha çox sirayət edirdi. O, rəfiqəsinin təklifinə çox müsbət yanaşırdı. İmkanı olsaydı elə bu gün ona qoşulub gedərdi.

Çox söz-söhbətdən, gediş-gəlişdən sonra Mələk xanım Nisə xanımla Dubaya getmək barədə razılığa gəldilər. Məsələnin birinci mərhələsi həll olunmuşdu, indi qalırdı ikinci-həlledici mərhələ. Bu mərhələdə Nisə xanım ərindən razılıq almalı idi.

Nisə xanım evdə ərinə müəllimlik peşəsindən bezdiyini tez-tez xatırladırdı. Deyirdi ki, müəllimlikdən aldığı məvacib onu qane etmir.

Məhəbbət belə söhbətləri qulaqardına vururdu. O, fikirləşirdi ki, Nisə üçün müəllimlik pis peşə deyil, çörəyi çıxır, Allah bərəkət versin.

Nisə xanım hiss edirdi ki, əri onun bu fikrinə çox laqeyddir. Odur ki, bir axşam üzünü Məhəbbətə tutub gileygüzarla dedi:

-Sən artıq tanınmış rəssamsan, əsərlərin Beynəlxalq sərgilərin mükafatlarına layiq görülüb. İmkanların kifayət qədərdir. Cəmi bir uşağın var. Camaatın arvadları iki aydan bir müxtəlif şəhərlərdə kurortlarda olur. Mən yazıq onlara tamaşa edirəm. Daha belə yaşamaq istəmirəm. Necə olursa-olsun bu yay istirahətə, görmədiyim şəhərlərə getməliyəm. Əgər sən mənimlə getməsən, özüm tək gedəcəyəm.

Məhəbbət soyuqqanlıqla soruşdu:

- Allah qoysa, hansı tərəfə getmək fikrin var, ay Nisə?

Nisə xanım ərinin bu istehzalı sualından bir az da əsəbiləşdi:

- Xahiş edirəm, məcazi danışmayasan. Bu mənim doğru sözümdür.

- Mən də bilirəm, doğru deyirsən. Əgər sirr deyilsə hara hazırlaşırsan?

- Hara hazırlaşacam? Camaat gedən yerlərə.

- Məsələn?

- Məsələn, elə Dubaya, qonşumuz Mələk xanımın hər həftə gedib-gəldiyi Dubaya. Həm istirahət edərəm, həm də əyin-baş alaram. O da mənim kimi müəllim idi. İndi onun cah - cəlalına bax.

Məhəbbət hirslənən kimi oldu:

- Hara gedirsən get, ancaq Dubaya yox! Mənim oradan zəhləm gedir.

Arvad səsinin tonunu bir az da artırdı:

- Dubaya nə olub ki? Sənin acığına mən lap ora gedəcəyəm.

- Mən icazə vermirəm! Eşitdin?

- Sən ora-bura gedəndə heç məndən icazə alırsan? Olmaya məndən üstün adamsan?

- Məsələ üstünlükdə deyil. Hörmətdədir, məsləhətdədir.

Arvad özündən çıxdı:

- Hə, düz deyirsən, məsələ qarşılıqlı hörmətdədir. Əfsus ki, aramızdakı belə qarşılıqlı hörmət sənin təqsirin üzündən çoxdan pozulub.

Məhəbbət arvadının cızıqdan çıxdığını görüb söhbəti yekunlaşdırmaq istədi:

- Xülasə, mən sənə Dübaya getməyə icazə vermirəm.

Nisə xanım da qərarını verdi:

- Mən gedəcəyəm! Görürəm ki, sən öz adının mənasına xor baxırsan. Bu adı onun mənasına əməl edən adam daşımalıdır.

...Evdəki söz-söhbət Məhəbbəti bezdirmişdi. Əslinə qalsa, elə Nisə xanım da belə yaşamaqdan cana doymuşdu.

Mələk xanım hər vasitə ilə çalışırdı ki, Nisə xanım onun təkliflərinə razı olsun, ikisi birlikdə səfərə çıxsalar daha maraqlı olar. Ən maraqlısı da o olardı ki, Nisə xanım ərindən boşansa, rəfiqələr sərbəst fəaliyyət göstərərdilər. Elə bu məqsədlə də Mələk xanım gizli və hiyləgər yollarla Məhəbbətdə Nisə xanıma qarşı, Nisə xanımda da Məhəbbətə qarşı kin-küdurət yaratmaq barədə düşünürdü.

Mələk xanım bir neçə dəfə Məhəbbətə onun arvadı haqqında hər cür yalan danışmaqdan da çəkinməmişdi. Ər-arvadı bir-birindən ayırmaq üçün anonim məktublar təşkil edirdi, anonim telefon zəngləri vururdu.

... Nisə xanım balaca oğlu ilə evdə ekran qarşısında oturub "Ailələr və talelər" verilişinə baxırdılar. Əri hələ emalatxanadan qayıtmamışdı. Bu vaxt qapı döyüldü. Gələn poçtalyon idi, Nisə xanımın adına Dubaydan yazılmış məktub gətirmişdi. Zərfi açmamış fikirləşdi ki, yəqin bir ay əvvəl tanış olduğu xaricdə yaşayan dostları, rəfiqələri yazıblar. O, qonşu otağa keçib zərfi açdı. Məktubun məzmunu tamam başqa bir mövzudan danışırdı. Nisə xanım tərəddüd içərisində məktubu oxudu. Məktubda deyilirdi:

" Ola bilər, hələ ki, xəbəriniz yoxdur, Nisə xanım. Bu barədə sizə məlumat verməyi özümüzə borc bildik. Şeytan cildinə girmiş kişilərin hiyləgərliyini duymaq o qədər də asan iş deyil. Siz də bundan istisna deyilsiniz. Hələ də xəbəriniz yoxdur ki, əriniz Məhəbbət hansı oyunlardan çıxır. Özünün rəssamlıq emalatxanasına cavan qadınları, qızları dəvət edir, guya onların portretlərini təmənnasız çəkir, reklam üçün gözəl qızları seçir, nə bilək, rəssamlıq kursu açır və sairə. Bütün bunları o, bəd niyyətlərlə həyata keçirir.

Bir nəfər gənc qız var, hər iki gündən bir onun emalatxanasında olur. Qonum-qonşular danışırlar ki, səni boşayıb, onunla evlənmək fikrinə düşüb. Elə kişidə ərdə olmaqdansa, olmamaq yaxşıdır. Hörmətlə: Sizə ürəyi yanan dostlar".

Məktubu oxuyub qurtardıqdan sonra susmuş halda kresloda oturub pəncərəyə tərəf baxdı, daha televizorda gedən verilişlə maraqlanmadı. Fikirli-fikirli oturmuşdu.

Bu vaxt Məhəbbət emalatxanadan qayıtdı. Əlində bir neçə rəsm əsəri vardı. Arvadının kefsizliyini görcək soruşdu:

- Nə olub, niyə kefin yoxdur?

Nisə xanım süni surətdə gülümsəyərək:

-Heç, hər şey yaxşıdır. İndi "Ailələr və talelər" verilişinə baxırdım. Atılmış qocalar və uşaqlar barədə verilən süjet mənə çox təsir etdi,-deyə cavab verdi.

Məhəbbət belə başa düşdü ki, nankorluqdan bəhs edən tele-süjet arvadının ovqatını korlayıb. Daha o bilmədi ki, ovqatı korlayan "Dubaydan gələn məktubdur".

Arvadı bu məktubun məzmunu ba-